## QƏRBİ AZƏRBAYCAN



# Elmə böyük töhfə verən alim

*Oğuz eli Qərbi Azərbaycanın zəngin mədəniyyət ocaqları ilə səciyyələnən füsunkar bölgələri sırasında Qaraqoyunlu mahalının xüsusi yeri olduğu danılmazdır. Coğrafi baxımdan Qərbi Azərbaycanın digər mahallarından unikal təbiəti ilə seçilib. Təbiət bütün gözəllikləri bu bölgənin insanlarından əsirgəməmişdi. Qaraqoyunlu Dilican dərəsi boyunca uzanan bu mənzərə Azərbaycanın ən qədim yaşayış məskəni olmuşdur. Tarixən böyük ziyalı ordusuna sahib olan bölgənin insanları özünəməxsus Oğuz adət-ənənələrini bu gün də qoruyub saxlayıblar.*



Əzəli Azərbaycan torpaqlarından olan Qərbi Azərbaycanın Qaraqoyunlu dərəsinin Çaykənd mahalı əsrarəngiz təbiəti, mərd, vüqarlı insanları ilə yanaşı, dünya elm və mədəniyyətinə böyük töhfələr vermiş, elmimizə bir çox tanınmış elm adamları bəxş etmişdir. Göyçə gölünün nəğməli sahillərində böyüyənlərdən biri də Süleyman İfxan oğlu Allahverdiyevdir. O, müasir dövrümüzün fitri tədqiqatçı istedadına, dərin riyazi təfəkkürə və qabiliyyətə malik görkəmli elmi simalardan biridir.

Süleyman Allahverdiyev 1950-ci il avqustun 1-də Çəmbərək rayonunun Qaraqoyunlu mahalının Çaykənd kəndində dünyaya göz açmışdır. O, 1973-cü ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin fizika fakültəsini bitirmiş, 1973-1977-ci illərdə Çaykənd orta məktəbində fizika müəllimi işləmiş, gözlərinin nurunu, qəlbinin hərarətini gənc nəslin təlim-tərbiyəsinə həsr etmişdir.

Qaraqoyunlu mahalının yetirməsi, ensiklopedik biliyə malik Süleyman Allahverdiyev 1977-ci ildə SSRİ Elmlər Akademiyasının Fotosintez İnstitutunun aspiranturasına daxil olur. 1984-cü ildə SSRİ Elmlər Akademiyasının Biofizika İnstitutunda namizədlik müdafiə edib, fizika-riyaziyyat elmləri namizədi elmi dərəcəsini alıb. Namizədlik dissertasiyasının müdafiəsindən sonra SSRİ EA-nın Fotosintez İnstitutunda işləməyə başlayıb. 2002-ci ildə o, REA-nın Bitkilərin Fiziologiyası İnstitutunda "bitkilərin fiziologiyası və biokimyası" ixtisası üzrə biologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya işini uğurla müdafiə edib.

Süleyman Allahverdiyevin elmi rəhbəri akademik Aleksandr A.Krasnovski və biologiya elmləri doktoru Vyaçeslav V.Klimov olub. Süleyman müəllim uzun illər (1990-2007) Yaponiyanın Okazaki şəhərində Milli Fundamental Biologiya İnstitutunda (prof. Morio Murata ilə birlikdə) və Klebek Universitetinin Kimya və Bilogiya fakültəsində prof. Robert Carpentier ilə birlikdə elmi işçi kimi çalışmış, Trois-Rivieres şəhəri, Klebek, Kanada (1988-1990) və İspaniyada işləmişdir.

Görkəmli alim Süleyman Allahverdiyev dünya səviyyəli tədqiqatçılarla uğurla əməkdaşlıq edib. O, bir çox beynəlxalq jurnalların redaktor müavini, baş redaktoru, 15-dən çox beynəlxalq jurnalın şurasına üzv seçilmişdir.

Hazırda Qərbi Azərbaycan torpağının yetirməsi Süleyman Allahverdiyev Rusiya Elmlər Akademiyasının K.A.Timiryazev adına Bitki Fiziologiyası İnstitutunun "İdarə olunan fotosintez" laboratoriyasının müdiri, Rusiya Elmlər Akademiyası Biologiyanın Fundamental Problemləri İnstitutunun baş elmi işçisi, Moskva Dövlət Universitetinin professoru, Moksva Fizika və Texnologiya İnstitutunun professoru, Bahçeşehir Universiteti "Fotosintez və Hidrogen Enerjisi" laboratoriyasının rəhbəri, İstanbul, Türkiyə, Azərbaycan Milli Elmlər Akademiyasının Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunda "Biotexnologiyalar" laboratoriyasının müdiri, Bakı, Azərbaycan, Əl-Fərabi adına Qazax Milli Universitetinin professoru, Almata, Qazaxstan, Foşan Universitetinin professorudur.

İstedadlı alim fotosintez, fiziologiya, biofizika, biokimya və molekulyar biologiya sahələrində elm aləmində tanınmış mütəxəssisdir. Əsas elmi işlərindən biri, fotosistem 2-nin reaksiya mərkəzində elektronların ötürülməsində "feotinin" molekulunun iştirakının kəşfi olub və həm də bu molekulların elektron zəncirində yerini müəyyən etmiş, onun əsas xarakteristikasını öyrənmişdir. Daha sonra onun tədqiqatları göstərdi ki, fotosintez zamanı suyun oksidləşməsi və oksigenin ayrılması 4 manqan atomunun iştirakı ilə baş verir. O, fotosistem 2-də "fiofitinin" və 4 manqan atomunun iştirakı ilə gedən elektron ötürülməsi prosesinin enerji və kinetik sxemlərini təklif və sübut etmişdir. Onun bu nəticələri dünya biologiya elminə dəyərli töhfə oldu və fotosintez sahəsində bir çox dərsliklərə daxil edildi.

Görkəmli alim Süleyman Allahverdiyevin nanobiotexnologiyaların yeni istiqamətlərindən biri olan təbii zülal strukturu əsasında süni fotosintez sistemlərinin yaradılmasını inkişaf etmişdirdir. Bu, eyni zamanda alternativ enerji mənbəyi kimi modekulyar hidrogenin əldə edilməsinə imkan yaradır. O, həm də doktorluq dissertasiyasının müdafiəsi üzrə iki ixtisaslaşmış şuraya üzv seçilmişdir. Onun rəhbərliyi ilə bir çox elmlər doktoru və elmlər namizədi bu gün Azərbaycan elminə xidmət göstərir. 25-dən çox ölkədə, o cümlədən Avstraliya, Fransa, İsveç, Çexiya, Macarıstan, Türkiyə, Hindistanda professor kimi çalışıb. O, Rusiya və digər ölkələrdə keçirilən 80-dən artıq konfransda çıxış edib, bir çox ölkələrdə mühazirələr oxuyub.

S.Allahverdiyev 2016-cı ildə "Thomson Reuters" tərəfindən dünyada biologiya sahəsində ən çox istinad edilən tədqiqatçı kimi tanınıb. 2018-ci ildə o, Rusiyada ən çox istinad edilən alimlərin reytinqində birinci olub və Həyat Elmlər Kateqoriyasında "Sçopis avards Russiya-2018" mükafatına layiq görülüb. 2018-2023-cü illərdə dünyanın ən nüfuzlu alimlərinin siyahısına daxil edilib ki, bu da dünya elmi ictimaiyyətinin ən çox istinad edilən nümayəndələrinin bir faizini əhatə edir. 2019-cu ildə Rusiya Elmlər Akademiyasının K.A.Timiryazev mükafatı, 2021-ci ildə isə o, alternativ enerjinin inkişafına, xüsusilə süni fotosintez sisteminin inkişafına verdiyi layiqli töhfəyə və bir sıra elmi işlərə görə "Qeyri-ənənəvi enerji" nominasiyası üzrə beynəlxalq "Qlobal enerji" mükafatının laureatı olub. 2022-ci ildə Süleyman Allahverdiyev bitki biologiyasının inkişafında və fotosintezin fundamental prinsiplərinin öyrənilməsində müstəsna xidmətlərinə görə Rusiya Federasiyasının "Əməkdar elm xadimi" adına layiq görülmüşdür. Həmyerlimiz 2022-ci ildə Əl-Fərabi adına Qazax Milli Universitetinin "Elm qarşısında xidmətlərinə görə" qızıl medalı ilə təltif edilib. 2022-ci ildə Rusiya Elmlər Akademiyasının müxbir üzvü seçilib. 2022-ci ildə S.Allahverdiyev "Fiztex"in 75 illiyi yubiley medalı ilə təltif edilmişdir.

Stenford siyahısı üzrə 2020-2023 və 2024-cü illərdə görkəmli alim beynəlxalq akademik platformasının "Bitkişünaslıq və aqronomiya" reytinqində Rusiyada birinci və dünyada 373-cü yeri tutub. Həmyerlimiz, Rusiya EA-nın müxbir üzvü, 2024-cü ildə Rusiya Elmlər Akademiyasının 300 illik yubileyi ilə əlaqədar dünya elminin inkişafında, elmi kadrların hazırlanmasında böyük xidmətlərinə görə "Rusiya Elmlər Akademiyasının 300 illiyi" yubiley medalına layiq görülmüşdür.

Fizika-riyaziyyat elmləri namizədi, biologiya elmləri doktoru Süleyman müəllim yaşadığı qürbət ölkədə elm fədaisi kimi tanınmışdır. Ömrünün 75-ci baharını yaşayır. Vətən, yurd həsrəti onu çox sıxır. O, Qaraqoyunlunun atlas geyimli dağlarının həsrətini çəkir, Göyçə qayaları kimi səngərli-löngərlidi, Göyçə ərənləri kimi vəfalı-sədaqətlididir, qürurlu, ləyaqətlidir, səxavətlidir. Yaşının bu çağında qəribsəmiş yurd yerlərinə, Qaraqoyunluya, Dikdaşa, Nigar bulağına, Qanqallı dağına, Əmirxeyrə, Bəryabad meşələrinə dönmək istəyir…

**Qədir ASLAN,**
**Əməkdar jurnalist.**